# ƏJDƏR OL OBRAZI

## *yaxud LO-dan gələn yazı*

Xalq arasında qəfil gələn bəlaya "lo" deyirlər, bəzi yerlərdə "lov", bəzi yerlərdə "alov" da deyilməyi var.

Cəmiyyətin içində baş verən hadisələrin "lo"-ya çevrilməyi də var. "Lo" bir çox hallarda cəmiyyəti dəyişməyə, onu yeni axara salmağa xidmət edir, bəzən də yaxşıya, pisə fərq qoymur, qabağına çıxanı öz axarına alır, ağzına götürür; görünməzliklərə, bilinməzliklərə aparır.

Azərbaycanın siyasi-mənəvi mühitində son vaxtlar baş verən hadisələr çoxlarını qane edir. İnsafən, insanlar nizam, başıpozuq əməllərə düzəm intizarındadır. Ona görə də korrupsiya əməllərinə qarşı görülən tədbirləri əhalinin çox böyük əksəriyyəti razılıqla qarşılayır və mən də bu razı olanların tərəfindəyəm.

Ancaq bəzən axın rənglərə fərq qoymur, az günahı olanla, çox günahı olanın arasında fərq görmür.

Azərbaycan ədəbiyyatının çox istedadlı şairi və tərcüməçisi, "Qəzənfər müəllimgilin



Şuşaya yürüşü" povest və hekayələri, "Lo" romanı ilə görkəmli nasir kimi tanınan Əjdər Olun hüquq mühafizə orqanları tərəfindən saxlanılması söz-sənət bilicilərini, ədəbiyyat adamlarını və mənim özümü də çox acı xəbər kimi sarsıtdı.

Yazıçı Əjdər Ol - Əjdər Cəbiyev adı ilə sıradan bir məmur olub. Həyatının az qismini rəsmi dövlət orqanında müəyyən rəhbərliyin tapşırığı ilə icraçı qismində yaşayıb. Zənnimcə, müəyyən tapşırıq və icraçı anlamları qarşı-qarşıya gələndə ölçülər çox aydın görünür. Əgər bu cür yanaşma olsa, Əjdər Olun yazıçılıq missiyası onun günahlarının (əgər varsa) fövqündə dayanır.

***(Davamı var)***

Əli Rza